AZƏRTAC

MƏDƏNİYYƏT

# “ADA” Universitetində “Kitabxana-informasiya sahəsində əldə edilmiş nəzəri və təcrübi nailiyyətlərin tətbiqi” mövzusunda birinci Beynəlxalq elmi konfrans işini başa çatdırmışdır

02.04.2014 [13:37] Çap et A⁺ A⁻



1 / 2



Bakı, 2 aprel (AZƏRTAC). Aprelin 2-də “ADA” Universitetində “Kitabxana-informasiya sahəsində əldə edilmiş nəzəri və təcrübi nailiyyətlərin tətbiqi” mövzusunda birinci Beynəlxalq elmi konfrans başa çatmışdır.

AZƏRTAC xəbər verir ki, Mədəniyyət və Turizm Nazirliyinin kitabxana sektorunun rəhbəri Lətifə Məmmədova çıxışında Prezident İlham Əliyevin 2008-ci il 6 oktyabr tarixli Sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasında kitabxana-informasiya sahəsinin 2008-2013-cü illərdə inkişafı üzrə Dövlət Proqramı”nın əhəmiyyətini vurğulayaraq demişdir ki, bu proqram həmin sahənin inkişafını stimullaşdırmış və kitabxanaların fəaliyyətinin səviyyəsini yüksəltmişdir. L.Məmmədova “Azlibnet” Milli Kitabxana-İnformasiya Mərkəzinin fəaliyyəti və strukturu barədə söz açmış, habelə www.azlibnet.az saytında “Azərbaycan ədəbiyyatının virtual kitabxanası” bölməsinin əhəmiyyətini vurğulamışdır. O demişdir: “Biz yüksək texnologiyalar dövründə yaşayırıq. Kitabxana və internet arasında əlaqə günbəgün artır”.

Missisipi Universitetinin professoru Qreqori Heyvort müxtəlif xalqların tarix və mədəniyyətinin öyrənilməsində manuskript və əlyazmaların rolunu vurğulamışdır.

Qeyd edək ki, konfransın işində Azərbaycan, ABŞ və Böyük Britaniya ali məktəblərinin və kitabxanalarının nümayəndələri iştirak etmişlər.

Xəbəri sosial şəbəkələrdə paylaşın

Bizi sosial şəbəkələrdə izləyin

MÜƏLLİFLƏ ƏLAQƏ

BÖLMƏNİN DİGƏR XƏBƏRLƏRİ